# Qarabağ savaşında jurnalistlərimiz gecə-gündüz əsgərlərimizin yanında oldular



**“Azərbaycan Ordusu Qarabağ savaşı zamanı düşməni darmadağın etməklə yanaşı, bir çox nəticə və parametrlər üzrə dünya hərb tarixində yeni rekordlara da imza atdı. Azərbaycan mediasının Vətən müharibəsi günlərində fəaliyyəti ordumuzun bu hünərini informasiya cəbhəsində layiqincə tamamladı”. BDU-nun Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, professor Cahangir Məmmədli bu açıqlamasının davamında bildirdi:**

– Biz müharibənin ilk günündən jurnalistlərimiz arasında ciddi bir həmrəyliyə şahid olduq. Bu birliyin əsası koronavirusun ölkəmizdə yayılmağa başladığı dönəmdə qoyulmuşdu. Lakin Vətən müharibəsi başlayandan jurnalistlərimiz, sözün həqiqi mənasında, əsgərlərimizin yanında oldular. Televiziyaların, saytların, qəzetlərin jurnalistləri cəbhədən birbaşa reportajlar, publisistik yazılar hazırlayırdılar. Bu birliyi mən müharibənin başladığı gündən “Birləşmiş Azərbaycan Jurnalistləri” ifadəsi ilə xarakterizə etmişəm.

Birləşmiş Azərbaycan jurnalistləri vahid psixoloji xarakter ortaya qoydular. Məsələn, televiziyaların hər birinin fərqli psixoloji xarakteri var. Biri musiqi, digəri idman, bir başqası mədəniyyət və s. ilə məşğuldur. Lakin müharibə dönəmində onların hamısı Qarabağ savaşı mövzusunu əsas götürdü və bu istiqamətdə işlədi. Xüsusilə telekanalların jurnalistləri ən ağır yerlərdə əsgərlərimizin yanında oldular. Telekanalların reportyorları Gəncəyə atılan bombanın, Ağcabədiyə, Ağdama atılan raketlərin altında oldular, bu şərtlər altında da bizə lazımi informasiyanı ötürdülər.

Bir məsələni xüsusi qeyd etmək istəyirəm. Müharibə günlərində Prezident, Ali Baş Komandan İlham Əliyev xarici telekanallara, digər media qurumlarına çoxsaylı müsahibələr verdi. Onların hamısının ətrafında bizim qəzetlərimiz, telekanallarımız təhlillər apardılar, publisistik yazılar yazdılar.




Bununla da o konseptual açıqlamalar daha izahlı şəkildə Azərbaycan oxucusu və tamaşaçısına çatırıldı.

Media professoru Cahangir Məmmədli sonda dedi: “Mən həmin dövrdə qəzetlərin bu məsələyə necə yanaşmasını xüsusi diqqətlə nəzərdən keçirirdim. Mənim üçün doğma olan bir sıra qəzetlər var ki, bunlara rəsmi “Xalq qəzeti”, müstəqil “525-ci qəzet”, “Şərq”, və s. nəşrlər daxildir. Bu qəzetlərin səhifələri 44 günlük savaş günlərində başdan-ayağa müharibə mövzusu ilə bağlı idi. Bu vətənpərvərliyə, peşəkarlığa və döyüşkənliyə görə mən jurnalistlərimizin fəaliyyətindən çox razıyam. Azərbaycan mediası Vətən müharibəsi zamanı yüksək peşəkarlıq və vətənpərvərlik sərgilədi”.

***Hazırladı: Tahir AYDINOĞLU, “Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 20 noyabr.- S.5.